**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Emin Quliyevin 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Umaratov Qüdrət Hüseynqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 131 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 15.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 53 saylı Quba-Qusar seçki dairəsi üzrə Birinci Nügədi bələdiyyəsi üzvlüyünə namizədlər Umaratov Qüdrət Hüseynqulu oğlu, Məhərrəmov Rafiq Şahbaba oğlu, İsayev Mirzə Hacıqulu oğlu, Kərimov Saib Səməd oğlu, Orucov Mais Qədir oğlu, Məmmədov Ehtiram Novruz oğlu, Abdulov Cəlil Mehdibala oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, Birinci Nügədi kənd icra nümayəndəsinin və Birinci Nügədi bələdiyyəsinin sədrinin seçkilərə qanunsuz müdaxilə etdiklərini, həmin hallarla bağlı müvafiq dairə seçki komissiyası tərəfindən hərəkətsizlik edildiyini bildirmiş və qanuna müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılmış vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində 53 saylı Quba-Qusar seçki dairəsi dairə seçki komissiyasının sədri Rasim Qarayevin və digər komissiya üzvlərinin, 53 saylı Quba-Qusar seçki dairəsinin 1, 2, 3 və 57 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər Rahim Seyidovun, Səyyab Ağaməmədovun, Könül Müslümovanın, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Rahim Əkbərovun, Anar Məmmədovun, Saleh Hüseynovun, Kamran Həsənovun, Ərzuman Məhərrəmovun, Kamil Həsənovun, Taleh Sultanovun, Hikmət Mirzəyevin Taleh Salmanovun verdikləri izahatlardan Birinci Nügədi bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi,

səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolunun dərhal tərtib edilərək ictimailəşdirildiyi təsdiq olunmuşdur. Birinci Nügədi bələdiyyəsinin sədri Sadiq Ayaməzovun və kənd icra nümayəndəsi Rasim Musayevin izahatlarında da onlar tərəfindən hər hansı qanun pozuntusu törədilməsi faktı inkar edilir. Eyni zamanda 53 saylı Quba-Qusar seçki dairəsi dairə seçki komissiyasının sədri və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından Birinci Nügədi bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Beləliklə də, 53 saylı Quba-Qusar seçki dairəsinin Birinci Nügədi bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verilməsi, həmçinin müvafiq dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş Umaratov Qüdrət Hüseynqulu oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 131 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü — Emin Quliyev